**UOT 78.03**

**GÜLYANAQ FƏRZƏLİYEVA***

# NAXÇIVAN TEATRINA "DÖVLƏT" STATUSU VERİLDİKDƏN SONRA BURADA TAMAŞAYA QOYULMUŞ BƏSTƏKAR ƏSƏRLƏRİ (1920-30-cu illər)

*Məqalədə Naxçıvan Dövlət Dram Teatrının inkişafı illərində - 1923-1939-cu illər ərzində milli bəstəkarların əsərləri əsasında hazırlanmış tamaşalardan bəhs edilir. Burada hər bir tamaşa ətraflı təhlil olunmaqla, onların premyera tarixləri də dəqiq göstərilir. Həmçinin müəlliflər – bəstəkarlar haqqında məlumat verilməklə, rejissor və rəssam işi, eləcədə də bu tamaşalarda iştirak edən aktyorlar, onların obrazları geniş işıqlandırılır.*

**Açar sözlər:** *Naxçıvan Teatrı, opera, operetta, bəstəkar, rejissor, rəssam, dirijor, aktyor.*

1923-cü ildə Naxçıvan Vilayət Mərkəzi İcraiyyə Komitəsi Naxçıvan Teatrına "dövlət dram teatrı" adını verməklə onun 40 illiyinin keçirilməsi barədə qərar qəbul edir. Naxçıvan Teatrı "Dövlət Dram Teatrı" statusu aldığı ilk illlərdən bu diyarda köhnəliklə mübarizənin, yeniləşmənin əsl avanqardına çevrildi. Yerli əhalinin teatra marağı daha da artdı.

"Naxçıvan Teatrında 1923-1924-cü illərdə rejissorluğu, əsasən Səməd Mövləvi və Həsən Səfərli edirdilər. A.Qasımlı da bir neçə tamaşaya quruluş verib. Rəssamlıqda Adil Qazıyev və musiqi tərtibatında Adil Kəngərli çalışırdılar. Truppa tam fomalaşmamışdı. Bununla belə, teatr kiçikhəcmli pyeslərlə yanaşı, dram və faciələr də hazırlayırdı" (6, s. 67). Bu illərdə teatrın müraciət etdiyi musiqili əsərlər Üzeyir bəy Hacıbəyovun "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şah Abbas və Xurşidbanu", "Arşın malalan", "O olmasın, bu olsun", Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib", "Əlli yaşında cavan", "Evli ikən subay" kimi opera və operettalarından ibarət olmuşdur.

Həmin vaxt teatrın truppasında ən fəal aktyorlar Səməd Mövləvi, Rza İsfəndiyarlı, Əli Xəlilov, Mirhəsən Mirişli, Murad Tutayuq, Əli Eldarov, Zina Budaqova, Kişvər Axundova, Səkinə Rzalı, Nadirə Rzayeva, Yelena xanım, Bela xanım, Rza Vəzirov, Teymur Qasımov, Tanya Səfərli, Şura Mirişli, Muxtar Nəsirov, sonralar Akademik Dram Teatrda işləyən Cabbar Əliyev, Rza və Heydər Məhəmmədzadələr, Allahverdi Qasımlı, Musa Məhəmmədov, Nəcəf Tağızadə olmuşlar.

Bu dövrdə repertuarda daha çox qalan tamaşa "Arşın malalan" hesab olunur. H.Səfərlinin quruluşundakı bu operettada R.İsfəndiyarlı (Əsgər), Z.Budaqova (Gülçöhrə), M.Tutayuq (Süleyman), Səkinə Rzalı (Xala), Ə.Eldarov (Soltan bəy), Yelena (Asya), Ə.Xəlilov (Vəli), K.Axundova (Telli) iştirak etmişlər. 1923-cü ilin yayında tamaşa aktyor heyətində qismən dəyişiklik edilərək Naxçıvana gəlmiş Abbasmirzə Şərifzadənin Soltan bəy rolunda iştirakı ilə bir neçə gün göstərilmişdir.

Teatrın ilk direktoru, sonralar Naxçıvan MSSR əməkdar artisti olmuş Əli Xəlilov özünün "Naxçıvan Teatrının tarixi" kitabında 1923-cü ildəki əlamətdar hadisələri belə xatırlayır: "1923-cü ildə Naxçıvan Teatrının 40 illiyi tamam olurdu. O zaman teatrımızın fəal üzvlərindən Həmid Mahmudov Naxçıvan SSR xalq maarif komissarı idi... Vilayət Partiya Komitəsinin katibi Əhməd Haşımovun və başqa yoldaşların təşəbbüsü ilə yubileyi keçirmək üçün komissiya təşkil olundu. Naxçıvan hökumətinin buraxdığı vəsaitlə biz binanı əsaslı surətdə təmir etdik ( 1, s. 52).

"Teatrın işini yaxşılaşdırmaq, aktyorların peşə ustalığını daha da artırmaq məqsədilə 1924-cü ildə Naxçıvan Xalq Maarif Komissarlığı İncəsənət İşçiləri İttifaqı ilə birlikdə Bakıdan görkəmli səhnə ustadı Kazım Ziyanı Naxçıvana dəvət edir. Bu illərdə Naxçıvan Dövlət Dram Teatrında çalışan Kazım Ziya aktyorların dili üzərində gərgin işləyərək onlara səhnə danışığının incəlklərini aşılayır, rol üzərində aktyor işinin xüsusiyyətlərini açıqlayır və beləliklə də yaradıcı kollektivin püxtələşməsinə öz töhfəsini vermiş olur..." (3, s 32-34).

Naxçıvan Teatrında məhz Kazım Ziya müəllifi bəstəkar olmayan tamaşaların da musiqilə müşayiət olunması məsələsini qaldırmış və bunun həyata keçməsinə nail olmuşdu. Repertuarda olan və yeni hazırlanan tamaşaların hamısı üçün məzmunauyğun musiqilərin tərtib olunması işinə başlanıldı.

1925-ci ildə Naxçıvan Dövlət Dram Teatrında yeddi yeni tamaşa hazırlanmışdı ki, onlardan Ü.Hacıbəyovun "Leyli və Məcnun" operası (12 aprel, quruluşçu rejissor S.Mövləvi, rəssam A.Qazıyev, dirijor A. Kəngərli) özünün bədii-estetik dəyəri və tamaşaçı rəğbətilə daha böyük uğur qazanmışdı. 1927-ci il yenə də opera və operettaların bolluğu ilə yadda qalmışdır. Həmin ildə "Leyli və Məcnun", "Arşın malalan", "Məşədi İbad" yeni quruluş və tərkibdə bir daha təqdim olundu. Bu tamaşaların rejissorları Səməd Mövləvi və Həsən Səfərli olmuşlar. Hər üç tamaşaya həmişəki kimi Adil Kəngərli dirijorluq etmişdi.

Səməd Mövləvi 1929-cu il may ayının 28-də Naxçıvan Dövlət Dram Teatrının baş rejissoru təyin edilir. 1930-cu il 22 aprel tarixli "Şərq qapısı" qəzeti Naxçıvan Teatrının mövcud truppasının tərkibi barəsində məlumat verərək yazmışdır: "Azərbaycan Dövlət Teatr Texnikumunu bitirmiş Tükəzban Əhmədova teatrımıza gəlmiş. Bu bizim teatrımızda birinci türk qızıdır ki, ixtisas təhsili almışdır" (8).

Azərbaycanın əməkdar artisti Sidqi Ruhulla (sonralar SSRİ xalq artisti) 1931-ci ildə Naxçıvan Dövlət Dram Teatrının direktoru və baş rejissoru təyin olunur. Onun teatra rəhbərliyi dövründə repertuar zənginliyinə və rəngarəngliyinə, truppaya yeni kadrların, xüsusən də gənclərin cəlb olunması işinə, kollektivin muxtar respublikanın ictimai-siyasi həyatında daha fəal iştirakının təmin olunmasına diqqət artırılır. Naxçıvan Teatrının görkəmli sənətkarları kimi tanınan R.İsfəndiyarlı, X.Qazıyeva, İ.Musayev, F.Əlixanova, M.Mirişli, Ə.Haqverdiyev məhz bu dövrdə "Sidqi məktəbi" keçərək səhnə danışığı və səhnə mədəniyyətinin incəliklərinə yiyələnmiş, sənətdə püxtələşmişlər.

Bu illərdə hazırlanan bir sıra dram tamaşalarının musiqi tərtibçisi Tapdıq Hüseynov olub. "1922-ci ildən Naxçıvan Teatrının kollektivinə daxil olan T.Hüseynov o zamandan muxtar respublikanın mahir tarzənlərindən biri kimi tanınmış, qısa müddət ərzində gənc musiqiçiləri toplayıb xalq çalğı alətləri ansamblı yaratmış, eyni zamanda bir sıra tamaşaların musiqi tərtibçisi kimi də fəal yaradıcılıqla məşğul olmuşdur" (5, s 35).

"Aktrisa Firuzə Əlixanova 1932-ci ildə Naxçıvan Teatrına gəldi, Ordubadın gənc aktrisası, mövhumat mühiti içərisində böyümüş Firuzə teatra gələndə, keçmişin qara pərdəsi – çadra hələ başında idi... İlk dəfə Naxçıvan Teatrına qədəm qoyduğu gündən etibarən Firuzə Əlixanova öz həyatını əbədi olaraq səhnəyə bağladı və çox çəkmədi ki, Naxçıvanın istedadlı aktrisalarından biri oldu... Gözəl səsə malik olması onun opera və operettalarda müvəffəqiyyətlə çıxış etməsinə imkan yaradırdı" (1, s. 65-66).

Naxçıvan Teatrı 1934-cü ildə artıq muxtar respublikanın demək olar ki. bütün kəndlərinin əhatə edə bilirdi. Yaradıcı kollektiv kəndlərdə yığcam tamaşaların göstərilməsi üçün müxtəlif briqadalar şəklində səfərə çıxırdı. Teatrın direktoru "Şərq apısı" qəzetinin 12 mart tarixli nömrəsində bildirmişdi ki: "Yaz əkini başlayandan qurtarana kimi kolxozçulara teatrda 30 pulsuz yer ayrılmışdır" (8).

1937-ci ilin birinci yarımili ərzində Ü.Hacıbəyovun "Ər və arvad" operettası ilə "Leyli və

Məcnun" operası yeni quruluşda hazırlanır. Hər iki tamaşanın quruluşçu rejissoru S.Mövləvi, rəssamı Ş.Qazıyev, dirijoru T.Hüseynov olmuşdur.

Premyerası mart ayının 3-də olan "Ər və arvad" tamaşasında rolları S.Mövləvi və Ə.Mənsur (Mərcan bəy), F.Əlixanova (Minnət), M.Mirişli (Kəblə Qubad), M.Məmmədova (Gülpəri), S.Həsənzadə (Səfi), Ə.Rüstəmov (Əli), N.Rzayev (Pristav), Ə.Abutalıbov (Tamada), R.Bacıoğlu (Vəli), A.Əliyev (Baqqal), G.Mahmudova (Gürcü qızı), RşAğayeva və X.Qazıyeva (Pristavın arvadı), Ə.Nəsirov (Gülməmməd), L.Niftəliyev (Aşpaz Həsən), R.İsfəndiyarlı (Lotu Behbud) oynamışdılar.

İlk tamaşası iyun ayının 6-da olan yeni quruluşdakı "Leyli və Məcnun"da isə əsas rollarda Hüseynqulu Sarabski və Səməd Mövləvi (Məcnun), Firuzə Əlixanova (Leyli), Mirhəsən Mirişli (Məcnunun atası), Rza İsfəndiyarlı (Leylinin atası), İsa Musayev (Nofəl), Rza Tumbullu (İbn Səlam), Əşrəf Rüstəmov (Zeyd) çıxış etmişdilər.

Azərbaycan SSR Xalq Komissarları Soveti yanındakı İncəsənət İşləri İdarəsinin sərəncamı ilə Naxçıvan Teatrına göndərilən İbrahim Həmzəyev taleyini həmişəlik bu sənət ocağı ilə bağlayaraq ömrünün sonunadək 50-dən artıq tamaşaya quruluş vermiş, bir o qədər sayda müxtəlif xarakterli obrazlar silsiləsi yaratmış, bu qocaman sənət ocağının baş rejissoru və direktoru vəzifələrinədək yüksəlmiş, Azərbaycan SSR xalq artisti fəxri adına layiq görülmüşdür.

"1939-cu ilin aprel ayında Naxçıvan şəhərinin teatr lövhələrində S.Vurğunun "Vaqif" pyesinin afişası göründü. Bakıdan dəvət olunmuş rejissor H.Əliyev "Vaqif" tamaşasının quruluşçu rejissoru idi. Aprel ayının 12-də "Vaqif" pyesinin ilk tamaşası göstərildi. İmkanı olmadığına görə tamaşaya gələ bilməyən S.Vurğun yaradıcı kollektivə təbrik teleqramı göndərmişdi. Lakin sonradan şair Naxçıvan Teatrında "Vaqif" tamaşasına baxmış və çox razı qaldığını bildirmişdi.

Rejissor tamaşada maraqlı aktyor ansamblı yarada bilmişdi: Vaqif – İ.Həmzəyev, Vidadi – S.Mövləvi, Ağaməhəmməd şah Qacar – S.Həsənzadə, Xuraman – X.Qazıyeva, Eldar – İ.Musayev, İbrahim xan – M.Mirişli..." (4, s. 13.).

Quruluşçu rəssamı Ş.Qazıyev olan "Vaqif" tamaşası üçün Tapdıq Hüseynov hər bir səhnəyə və hadisəyə uyğun olan gözəl və yaddaqalan melodiyalardan ibarət musiqi tərtib etmişdi.

M.F.Axundovun anadan olmasının 125 illiyi münasibətilə 1938-ci ilin mart ayında Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fərmanına əsasən Naxçıvan Dövlət Dram Teatrına böyük mütəfəkkir və dramaturqun adı verildi. Beləliklə, bu qədim sənət ocağı həmin vaxtdan 1964-cü ilədək M.F.Axundovun adını daşıdı.

"... Səfər Rəcəbli Naxçıvanın musiqiçiləri üçün tanrı payı idi. Bu insanın musiqi təhsili yox idi. Heç bir məktəb oxumamışdı. Bütün bu işıqlı hisslər onun qəlbinə qeybdən gəlirdi… Hələ demirəm ki. Naxçıvan Teatrının bir çox tamaşalarına musiqi bəstələyib… Hələ demirəm ki, Naxçıvan musiqiçilərinin əksəriyyəti onun "şinelindən" çıxıblar.

Çoxdur xidmətləri Səfər Rəcəblinin Naxçıvan mədəniyyəti üçün. Ölümündən üç il əvvəl Naxçıvan Muxtar Respublikasının əməkdar artisti adına layiq görüldü. Halbuki, bu fəxri adı o, çox-çox qabaqlar almalıydı. Nəinki Naxçıvanın, hətta Azərbaycanın da fəxri adı bu işıqlı insanın, işıqlı xidmətlərin müqabilində çox-çox balaca idi. Nə isə… Qoca dünyanın çox qəribə-qəribə işləri var. Səfər müəllimin gözləri görmürdü. Uşaq ikən dünya işığına həsrət idi o gözlər. Və dünyanın bir qəribəsi də bu idi ki, o, görməyə-görməyə böyük aləm yaradırdı" (7, s. 16-17).

1939-cu ilin yeni və bərpa olunan tamaşaları sırasında Ü.Hacıbəyovun "Ər və arvad" operettası da var idi. Quruluşçu rejissoru S.Mövləvi, dirijoru H.Sadıqov olan tamaşanın premyerası mart ayının 29-da olmuşdur.

1939-40-cı ilin repertuarında olan yeni tamaşalar arasında bir opera və iki operetta yeni quruluşda tamaşaçılara təqdim olunmuşdur. May ayının 18-də premyerası olan "Arşın malalan"

tamaşasının quruluşçu rejissorları H.Ağayev və İ.Həmzəyev, rəssamı Ş.Qazıyev, dirijoru H.Sadıqov, rejissor assistenti F.Əlixanova olmuşdur. Rollarda S.Mövləvi (Əsgər), F.Əlixanova (Gülçöhrə), M.Məmmədova (Cahan xala), M.Mirişli (Soltan bəy), İ.Həmzəyev (Süleyman), X.Qazıyeva (Asya), Ə.Haqverdiyev (Vəli), T.Əkbərova (Telli) çıxış etmişlər.

İyun ayının 18-də premyerası olan "Məşədi İbad" tamaşasının quruluşçu rejissoru S.Mövləvi, rəssamı Ş.Qazıyev, dirijoru H.Sadıqov, rejissor assistenti Ə.Haqverdiyev, baş və əsas rollarda iştirak edənlər Ə.Haqverdiyev (Məşədi İbad), F.Əlixanova (Gülnaz), S.Mövləvi (Sərvər), M.Mirişli (Rüstəm bəy), S.Həsənzadə (Hambal), İ.Həmzəyev (Həsən bəy), İ.Musayev (Rza bəy), R.Bacıoğlu (Həsənqulu bəy), M.Quliyev (Qoçu Əsgər), M.Məmmədova (Sənəm) olmuşlar.Premyerası iyul ayının 23-də olan "Leyli və Məcnun"un quruluşçu rejissoru S.Mövləvi, rəssamı Ə.Qazıyev, dirijoru H.Sadıqov, rejissor assistenti F.Əlixanova idi. Məcnunu S.Mövləvi, Leylini F.Əlixanova, Nofəli M.Quliyev, İbn Səlamı Ə.Rüstəmov, Zeydi K.Şeyxov, Məcnunu atasını R.İsfəndiyarlı, Məcnunun anasını X.Qazıyeva, Leylinin atasını İ.Musayev, Leylinin anasını M.Məmmədova, ifa etmişlər. 1940-ci ilin əvvəllərində Naxçıvan Dövlət Dram Teatrının truppası artıq yetkin və püxtələşmiş aktyorlarla yanaşı, həvəskar gənclərin də axını hesabına xeyli böyümüş, truppa əsas və yardımçı heyətlərə bölünmüşdü.

Muxtar Respublika İncəsənət İşçiləri İttifaqının təşəbbüsü ilə 1938-1940-cı illərdə Naxçıvan Dövlət Dram Teatrı aktyorlarının, xüsusən də gənclərin sənətkarlıq səviyyəsini, peşə ustalığını artırmaq üçün teatrda Azərbaycan dili və ədəbiyyatına, natiqlik sənətinə dair mühazirələr, seminarlar təşkil olunmuşdu.

Əsasən Naxçıvan Pedaqoji Texnikumu müəllimlərinin və fəal tələbələrin iştirak etdikləri bu tədbirlərdə gənclər və həvəskar aktyorlar Azərbaycan dilinin incəliklərinə yiyələnir, Azərbaycan və dünya ədəbiyyatının, xüsusən də poeziyanın ən gözəl nümunələrilə yaxından tanış olaraq onları mənimsəyir, düzgün, qüsursuz danışıq vərdişlərinə yiyələnirdilər.

1940-cı ildə artıq güclü truppaya və mükəmməl orkestrə malik olan Naxçıvan Dövlət Dram Teatrında rəngarəng və məzmunlu repertuar bərqərar olmuş, zəngin paltar, rekvizit, qrim sexləri yaradılmış, musiqi bölməsi, işıq, dərzi, parik, butafor və dülgər sexləri təşkil olunmuşdu.

"1933-1941-ci illər arasında... daim axtarışlar aparmaq, yeni sənət nailiyyətləri qazanmaq əzmində və niyyətində olan Naxçıvan Teatrının kollektivi öz sələflərinin gözəl işini davam etdirərkən dövrün tələblərinə uyğun çıxış etməyə çalışırdı" (2, s. 118).

## Ə D Ə B İ Y Y A T

1.Xəlilov Ə.T. Naxçıvan Teatrının tarixi. Bakı: Azərbaycan Teatr Cəmiyyəti, 1964, 93 s.
2. Kərimov I.S. Məqalələr. 2 cilddə, I c. Bakı: Qapp-Poliqraf, 2003, 297 s.
3.Qasımov Ə.M. Naxçıvan Teatrında tərcümə əsərlərinin tamaşaları (1883-2013). Bakı: AFpoliqrAF, 2016, 176 s.
4.Qazıbəyov R.M., Vəzirov C.H. İbrahim Həmzəyev. Bakı: Azərnəşr, 1982, 52 s.
5.Quluyev N.P. Naxçıvanın musiqi mədəniyyəti tarixindən. Bakı: Elm, 1999, 138 s.
6.Rəhimli İ.Ə., Vəzirov C.H. Naxçıvan Teatrı (1883-2008). Bakı: Aspoliqraf, 2008, 352 s.
7.Vəzirov C.H., Əliyeva J.E. Sözlü, nəğməli Naxçıvan. Bakı: Sabah, 2003, 139 s.
8."Şərq qapısı" qəzeti.

***Naxçıvan Dövlət Universiteti***
***Azərbaycan Respublikasının əməkdar artisti***
***E-mail:gulyanaq.ferzeliyeva75@gmail.com***

**Gulyanag Farzaliyeva**

## COMPOSER STAGED HERE AFTER THE NAKHCHIVAN THEATER WAS GIVEN THE STATUS OF "STATE" WORKS (1920-30)

The article deals with the performances based on the works of national composers during the years of development of the Nakhchivan State Drama Theater - 1923-1939. Here, each performance is analyzed in detail, and their premiere dates are clearly shown. Also, information about the authors - composers, the work of the director and artist, as well as the actors involved in these performances, their images are widely covered.

**Keywords:** *Nakhchivan theater, opera, operetta, composer, producer, artist, conductor, actor.*

**Гюльянаг Фарзалиева**

## СЦЕНИЧЕСКАЯ ПОСТАНОВКА ПРОИЗВЕДЕНИЙ КОМПОЗИТОРОВ В НАХЧЫВАНСКОМ ТЕАТРЕ ПОСЛЕ НАИМЕНОВАНИЕ ЕГО СТАТУСОМ «ГОСУДАРСТВЕННЫЙ» (1920-30-ые годы)

В статье рассказывается о спектаклях подготовленных на основе произведений национальных композиторов в 1923-1939-х годах – в годы развития Нахчыванского государственного драматического театра. Всесторонне анализируя каждый спектакль, здесь точно указывается даты премьер. Кроме того информируя об авторах – композиторах, обширно освещается работа режиссеров, художников и актеров, выступивших в этих спектаклях.

**Ключевые слова:** *Нахчыванский театр, опера, оперетта, композитор, режиссер, художник, дирижер, актер.*

*(Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 07.01.2021**
**Son variant: 19.02.2021**